2020.- 10 oktyabr.- S.28.

iki sahil

# Ermənistan faşistləri də üstələyib







**Xüsusi olaraq qeyd olunmalıdır ki, Azərbaycan 30 ilə yaxındır münaqişənin dinc yolla həllinə çalışıb. Azərbaycan ATƏT-in Minsk qrupu formatında münaqişənin həllində maraqlı olub, lakin Ermənistanın baş naziri "Qarabağ Ermənistandır və nöqtə" deməklə danışıqlar prosesini pozmaqda maraqlı olduğunu göstərib, təcavüzkar və vandal mövqe nümayiş etdirməkdən usanmayıb.**

Özünün işğalçılıq siyasətini davam etdirən və müharibə cinayətləri törədən Ermənistan azərbaycanlı əhalinin məskunlaşdığı yerlərə ağır artilleriyadan atəş açaraq bir çox insanın həyatına qəsd edib, bəzilərini yaralayıb. Ermənistan silahlı qüvvələri tərəfindən atəşkəs rejimi və beynəlxalq hüququn normaları kobud şəkildə pozularaq mülki əhalinin sıx məskunlaşdığı yaşayış məntəqələri və sosial obyektlər ağır artilleriya qurğularından, aviasiyadan və xüsusi raket sistemlərindən istifadə edilməklə intensiv şəkildə atəşə tutulur. Xüsusi raket sistemlərindən istifadə etməklə mülki əhalini hədəf seçən işğalçı Ermənistan dövləti BMT Nizamnaməsini, beynəlxalq hüququn norma və prinsiplərini, beynəlxalq humanitar hüququn normalarını və insan hüquqları sahəsində digər sənədlərin müddəalarını kobud şəkildə pozmaqla öz təcavüzkar siyasətini, müharibə cinayətlərini davam etdirir. Bununla da düşmən ölkə özünün terrorçu və antiinsani mahiyyətini bütün dünyaya göstərir.

Belə ki, döyüşlərin davam etdiyi dönəmdə Azərbaycan əsgəri ilə üz-üzə döyüşdən qaçan düşmən öz heyfini mülki insanlardan, dünya və ölkə əhəmiyyətli tarixi abidələrimizdən çıxır. Təcavüzkar ölkənin silahlı qüvvələri tərəfindən oktyabrın 4-dən başlayaraq Azərbaycanın ikinci böyük şəhəri olan və döyüş bölgəsindən 500 kilometrdən çox məsafədə yerləşən Gəncə şəhərinin, eləcə də əhalimizin sıx yaşadığı məntəqələr ağır artilleriyadan atəşə tutulub. Hadisə nəticəsində bir mülki şəxs həlak olub, 32 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Bununla yanaşı, Ermənistanın hərbi-siyasi rəhbərliyinin göstərişi ilə düşmənin silahlı birləşmələri döyüş əməliyyatlarının aparıldığı bölgədən 100 kilometrdən çox uzaqlıqda yerləşən, 100 mindən çox əhalisi olan Mingəçevir şəhərinin mülki əhalisinin sıx yaşadığı məntəqələri raket atəşinə tutulub. Həmin raketlərdən biri "Azərbaycan" İstilik Elektrik Stansiyasının qarşısına, digəri yaşayış məntəqəsinin yaxınlığına düşüb. Raketin partlaması nəticəsində 5 mülki şəxs müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Eyni zamanda, evlərə də külli miqdarda ziyan dəyib. İşğalçı Ermənistanın silahlı qüvvələri təcavüzkar hərbi-siyasi rəhbərliyinin göstərişi ilə beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyası və onun Əlavə Protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla mühüm dağıntılara səbəb ola bilən müharibə üsullarından istifadə etməklə döyüş əməliyyatlarının aparıldığı bölgəyə aidiyyəti olmayan Xızı rayonunun Türkoba və Abşeron rayonunun Pirəkəşkül kəndlərinin yaşayış məntəqələrini və silahsızlaşdırılmış zonaları, habelə hərbi hədəf olmayan, aydın görünən və fərqləndirilən obyektləri, o cümlədən mülki əhalini hədəfə almaqla böyük dağıdıcı qüvvəyə malik 2 ədəd uzunmənzilli ballistik raketdən istifadə edərək, həmin kəndlər istiqamətində intensiv atəşlər açmaqla Azərbaycan Respublikasına qarşı təcavüzkar müharibə planlaşdırılmaqla aparılıb və terrorçuluq cinayəti törədilib.

Ermənistan bu kimi təxribatlara öz uğursuzluğunu örtbasdır etmək üçün əl atır Ermənistanın dinc əhaliyə və mülki obyektlərə qarşı raketlərdən istifadə etməsi münaqişənin daha da gərginləşməsinə xidmət edən amillərdəndir. Bu, açıqaşkar Ermənistanın acizliyinin, çarəsizliyinin göstəricisidir. Bu, Ermənistan rəhbərliyinin sivil qaydalardan nə qədər uzaq olduğunu bir daha göstərir. Ermənistanın Bakını, yaxud da Mingəçevir və ya Gəncəni raket atəşinə tutmasının səbəbləri var. Birincisi, Azərbaycanı təxribata çəkmək. Hərbi ekspertlər də bildirir ki, iri şəhərlərin raket atəşinə tutulmasının əsas səbəbi Azərbaycanın oxşar şəkildə cavab verməsi və nəticədə, müharibənin miqyasının genişlənməsi, Rusiyanın, o cümlədən Ermənistanın üzvü olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını (KTMT) müharibəyə cəlb etməkdir. Rəsmi Bakının reaksiyası göstərdi ki, Azərbaycan tərəfi belə ucuz təxribatlara getmək fikrində deyil. Erməni tərəfinin iri şəhərlərə raket atmasının digər məqsədi dinc insanlar arasında daha çox itkilərə səbəb olmaq, mülki obyektlər, su anbarı, elektrik stansiyası kimi obyektləri vurmaqla kütləvi qorxu və təşviş yaratmaqdır. Ermənistan rəhbərliyi dinc əhalini bombalamaqla nəzərdə tutduğu hədəfə nail olmadı. Əksinə, əhalidə düşmənə qarşı qəzəb və nifrət artdı.

Azərbaycanın haqq səsini qulaqardına vuran, özünü kor, kar və lal kimi aparan dünyanın böyük dövlətləri və beynəlxalq təşkilatları bütün problemlərini kənara qoyub, Qarabağ münaqişəsi ətrafında intensiv hərəkətlilik nümayiş etdirməyə başlayıblar. ABŞ prezidenti Donald Tramp münaqişədən ciddi narahatlığını dilə gətirir, BMT-nin Baş katibi Antonio Quterreş, Fransa prezidenti Emmanuel Makron, Almaniyanın kansleri Angela Merkel Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib, Ermənistan və Azərbaycan arasında yaranmış hərbi qarşıdurmanın tezliklə dayandırılmasına və sülh danışıqlarının bərpasına dair reallıqları nəzərə almayan mövqelər ortaya qoyurlar. Bu gün bəzi ermənipərəst ölkələr, xüsusən Fransa Azərbaycanın atəşi dayandırmasında israr edir. Bu prosesdə ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərindən biri olan Fransa və onun siyasi rəhbərliyi izafi "fəal"lıq nümayiş etdirir. Məsələ ondadır ki, Fransa münaqişənin həllində vasitəçilik missiyasını daşıyan ATƏT-in Minsk qrupunun həmsədri statusunda olan 3 dövlətdən biridir. Beynəlxalq hüquqa görə, münaqişələrin tənzimlənməsində vasitəçi olan tərəf və ya tərəflər, ilk növbədə, qərəzsiz, tərəfsiz, obyektiv mövqedə olmalıdır. Reallıqda isə Fransa dövləti öz prezidentinin timsalında beynəlxalq hüquqda vasitəçilər üçün müəyyən edilmiş norma və prinsiplərə məhəl qoymur.

Prezident İlham Əliyev "Əl-Ərəbiyə" telekanalına müsahibəsində Fransaya məsləhət verib: "Əgər Fransa Dağlıq Qarabağ üçün öz müqəddəratını təyinetmə istəyirsə, qoy onlar demək olar ki, sakinlərinin yarısı ermənilərdən ibarət olan Marsel şəhərini onlara versinlər və onlara Dağlıq Qarabağ respublikası elan etməyə icazə versinlər və qoy onlara müstəqillik versinlər. Qoy Korsikaya müstəqillik versinlər, qoy basklara müstəqillik versinlər. Niyə onlar bizdən Dağlıq Qarabağ üçün müstəqillik tələb edirlər? Onların bunu bizdən tələb etməyə nə haqqı var? Onlar bu ittihamları dayandırmalıdırlar. Azərbaycana hücum etməyi və nüfuzumuza xələl gətirməyi dayandırmalıdırlar".

Azərbaycan 30 il atəşi dayandırıb və beynəlxalq vasitəçilərin köməyi ilə ölkəmizin ərazi bütövlüyünün sülh və dialoq yolu ilə təmin edilməsinə çalışıb. Təəssüf ki, beynəlxalq vasitəçilər, o cümlədən Minsk qrupunun üç həmsədrindən biri olan Fransa bu 30 ildə Azərbaycanın haqq səsini eşitməyib, ona görə də indi haqdan danışmaq üçün heç bir əsası yoxdur. İndi yox, 30 il öncə humanist olmaq, ədalətin bərqərar olması üçün mübarizə aparmaq lazım idi. Onlar vaxtında Ermənistanı başa salmalı idilər ki, başqa dövlətin ərazisini işğal etmək, insanları doğma yurdlarından, dədə-baba ocaqlarında xüsusi amansızlıq, misli görünməmiş vandallıqla çıxartmaq bəşəri cinayətdir. Azərbaycan isə bugünkü vəziyyətin baş verməməsi üçün 30 il ərzində əlindən gələni edib. Bu münaqişənin həlli missiyasını üzərinə götürən ATƏT-in Minsk qrupunun 3 həmsədr dövlətindən hansı biri 30 il ərzində torpaqlarının işğal altında qalmasına, soyqırıma, vandallığa dözərdi? Əlbəttə ki, heç biri!

**Yaqut Ağaşahqızı,**
***"İki sahil"***